Redaksiyamızın poçtunu araşdırarkən

# Yeni ədəbiyyat

*Gəncə şəhər MKS-in oxu zalında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən nəşr olunmuş və ölkə kitabxanalarına hədiyyə edilmiş kitabların təqdimat mərasimi keçirilmişdir.*

*Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, mədəniyyət idarəsinin rəisi Mina Məlikova, Yazıçılar Birliyinin Gəncəbasar Zonasının sədri Məmməd Alim, şəhər ziyalıları, müəllim və tələbə kollektivləri iştirak edirdi.*

*Mərasimi giriş sözü ilə mədəniyyət idarəsinin rəisi Mina Məlikova açdı. O qeyd etdi ki, kitabxana hər bir millətin, xalqın inkişaf səviyyəsini müəyyən edən amillərdən əsasıdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra səhiyyə, təhsil, mədəniyyət sahələrində gözə çarpan dərəcədə inkişaf hiss olunur. Xüsusi olaraq ümummilli liderimiz H. Əliyevin göstərişi ilə kitabxanalara diqqət birə-on artıb. Şəhərin böyük kitabxanaları əsaslı təmir olundu. Bir neçə il keçdikdən sonra nəşriyyatımıza latın qrafikalı yeni kitabların çap olunması üçün göstəriş verildi. Bu günlərdə isə möhtərəm prezidentimiz İ. Əliyevin hədiyyəsi olaraq latın qrafikası ilə çap edilmiş 15000-ə yaxın kitab verilmiş, bu kitablar şəhərin bütün kitabxanalarına paylanmışdır. MKS-in oxu zalı şöbəsinə bu il 980 ədəd latın qrafikalı prezidentin hədiyyəsi olan kitablar daxil olmuşdur.*

*Sonda çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov prezident İlham Əliyev cənablarının bu xeyirxah, dəyərli təşəbbüsü üçün ona dərin minnətdarlığını bildirdi və yaradıcı həyata daima həvəslə, peşəkarcasına işləməyi tövsiyə etdi.*

**E. Əliyeva**